# Heydər Əliyev irsinə dəyərli töhfə

Xalqımızın böyük oğlu, dünyaşöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir idarəetmə məktəbidir. Heydər Əliyev irsi elə bir xəzinədir ki, onu öyrənib, tədqiq edib başa çatdırmaq mümkün deyil. Bu irs hələ bundan sonra da yeni-yeni nəsillərin tədqiqat obyekti olacaq.




Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxsahəli irsi isə xalqımızın milli sərvətidir. Sözsüz ki, nə qədər Azərbaycan var, o qədər də Heydər Əliyev var. İllər keçdikcə bu dahi şəxsiyyətin həyatı daha ciddi elmi araşdırmalara cəlb olunacaq, onun fövqəladə idarəetmə qabiliyyəti haqqında cild-cild kitablar yazılacaq.

Hüquq elmləri doktoru, professor Habil Surxay oğlu Qurbanovun Ulu Öndər haqqında yazdığı və bu günlərdə "Bakı Nafta-Press" nəşriyyatında çap olunmuş "Heydər Əliyev Azərbaycanda milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısıdır" kitabında müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlət sahibi olmaq arzusunu praktiki şəkildə gerçəkləşdirmiş, strateq kimi çağdaş tariximizdə əbədiyaşarlılığını təmin etmiş Ulu Öndərin milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısı kimi titanik fəaliyyəti barədə yazmışdır.

Müəllif oxuculara təqdim etdiyi üç fəsildən ibarət 310 səhifəlik kitabında Ulu Öndərin hüquqi dövlət quruculuğu sahəsində gördüyü işlərdən bəhs edərək bu dahi şəxsiyyətin milli qanunvericilik sahəsində həyata keçirdiyi müqayisəolunmaz işlərin panoramasını təqdim etməyə çalışmışdır. Müəllif haqlı olaraq qeyd edir ki, yaxın keçmişimizə nəzər salsaq, görərik ki, bu günümüzə gələn yol heç də asan və hamar olmayıb. Bu yolda problemlərimiz, çətinliklərimiz, ağrılarımız kifayət qədər çox olub. Arxada qalan illərə ardıcıl müraciət etsək, müasir tariximizin hər səhifəsində dahi şəxsiyyət, böyük insan Ulu Öndərin silinməz izini görərik. Ulu Öndər Heydər Əliyevin ömür yolu hər birimiz üçün xalqa, vətənə xidmət etməyin rəmzinə çevrilib.

Professor Habil Qurbanov yeni kitabında daim həyat yolumuza nur çiləyən Ulu Öndərin fəaliyyətinin müxtəlif dövrlərini çoxsahəli aspektlərdən işıqlandırmağa çalışmış və buna böyük ustalıqla nail ola bilmişdir. Kitabda Ulu Öndərin beynəlxalq münasibətlər sistemində gördüyü ardıcıl və təxirəsalınmaz tədbirlərdən, müstəqilliyimizin ilk illərində xarici siyasət sahəsində uğurlu və çevik siyasətindən, daxili sabitliyi qorumaq üçün apardığı işlərdən maraqla bəhs edilir.

Kitabda müəllifin uzun illər apardığı araşdırmalar, son illər beynəlxalq və respublikamızda keçirilən konfranslarda etdiyi məruzələr, həmçinin ölkədə KİV və elmi jurnallarda çapdan çıxmış məqalələrin toplusu bir daha təkmilləşdirilərək nəşr edilmişdir.

Professor Habil Qurbanovun "Heydər Əliyev İli"nə ithaf etdiyi kitab geniş oxucu kütləsi, bakalavr, magistr, doktorant, elmi tədqiqatçılar, QHT və siyasi partiya nümayəndələri, hüquq maarifçilik sahəsində çalışanlar üçün nəzərdə tutulub. Şübhəsiz ki, gərgin əmək, yüksək peşəkarlıq, zəngin biliyə əsaslanaraq yazılan kitabı Ulu Öndərin irsini öyrənmək sahəsində mühüm addım hesab etmək olar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-3 may.- S.9.